Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Azərbaycan Tarixçiləri
İctimai Birliyi



İrəvan
XANLIĞI



# İrəvan xanlığının paytaxtı

# İRƏVAN ŞƏHƏRİ

Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur

Layihə rəhbəri,
Ön sözün müəllifi və
elmi redaktor: **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı Laureatı*

Rəyçi: **İradə Məmmədova**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**Güntəkin Nəcəfli**
***İrəvan xanlığının paytaxtı – İrəvan şəhəri.*** Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2017. - 40 s.

ISBN 978-9952-8268-3-8

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2017

Azərbaycan
Respublikasının
Prezidenti

**İLHAM ƏLİYEVİN**

təşəbbüsü
ilə yazılmışdır.

Bilirsiniz ki,
alimlərimiz mənim təşəbbüsümlə
İrəvan xanlığı haqqında böyük
elmi əsər yaratmışlar. Bunun çox böyük
əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox
faktoloji və elmi məsələləri əks etdirir.
Hesab edirəm ki, daha geniş
auditoriyaya çatdırmaq üçün
kiçik həcmli broşürlər də buraxılmalıdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Azərbaycanın diplomatik xidmət*
*orqanları rəhbərlərinin beşinci*
*müşavirəsindəki nitqindən.*
*7 iyul 2014-cü il*



## Oxuculara

Müasir Ermənistan Respublikasının ərazisi tarixi Azərbaycan torpaqlarıdır. 1918-ci il mayın 29-da erməni dövləti yaradılmasından əvvəl, bütün tarixi dövrlərdə həmin torpaqlar həmişə Azərbaycana məxsus olmuşdur. Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmiş hürrilər, kimmerlər, iskitlər, saklar, hunlar, çoxsaylı oğuz və qıpçaq türkləri məhz bu regionda, xüsusilə Göyçə gölü ətrafındakı torpaqlarda yaşamış və özlərindən sonra zəngin tarixi-mədəni iz qoymuşlar.

Azərbaycan xalqının və digər türk xalqlarının qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir olunan bir çox mühüm tarixi hadisələr, proseslər Azərbaycanın məhz bu regionunda cərəyan etmişdir. Böyük Azərbaycan hökmdarı Uzun Həsənin (1468-1478) tapşırığı ilə yazılmış Oğuznamədə – Əbu Bəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərində oğuz türklərinin soy kökündə duran Oğuz xaqanın məhz burada – Göyçə gölü* ətrafındakı Azərbaycan torpaqlarında yaşadığı, dünyasını burada dəyişdiyi və burada da dəfn olunduğu qeyd edilir. Xanlar xanı Bayandur xaqan və bir çox digər oğuz-türk sərkərdələri

* **1918**-ci il mayın 29-da Azərbaycan torpağı olan kecmiş İrəvan xanlığının ərazisində erməni dovləti yaradıldıqdan sonra **Göyçə** gölünün adı **1930**-cu ildə ermənilər tərəfindən dəyişdirilib **"Sevan"** adlandırılmışdır.





də özlərinin ata-baba yurdu olan bu diyarda fəaliyyət göstərmiş, burada da dünyalarını dəyişmiş, dəfn olunmuşlar.[1]

İlk mənbələr təsdiq edir ki, ayrı-ayrı işğalçı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, müasir Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu ərazi sonrakı tarixi dövrlərdə də Azərbaycan sülalələri olan Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Orta əsrlərdə Azərbaycan hakimləri olan Çuxursəd əmirləri və İrəvan xanlarının idarə etdikləri bu torpaqlar həm də Azərbaycan-türk tayfalarının elliklə və ən sıx şəkildə yaşadığı regionlardan biri idi.

İrəvan şəhərinin yerləşdiyi ərazi qədim dövrdə və erkən orta əsrlərdə Urartu, Əhəməni, Sasani, Ərəb Xilafəti, orta əsrlərdə Sacilər, Salarilər, Şəddadilər, Səlcuqlar, Atabəylər, Hülakülər, Cəlairilər və hətta Teymur dönəmində də Azərbaycanın sərhədləri daxilində olmuşdur. XVI əsr Osmanlı mənbələrində İrəvan şəhəri **"Azərbaycan mülkünün gözü"** adlandırılırdı.

İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalından sonra Qacarlar İranı və Osmanlı dövləti ərazilərindən kütləvi şəkildə köçürülüb gətirilən ermənilərdən 377 ailə məhz

[1] Geniş məlumat üçün bax: Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. (Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova). Bakı, 1998, s.46-47.



İrəvan şəhərinə – Azərbaycan türklərinin yaylaqlara köçərkən qoyub getdiyi evlərə yerləşdirildi. İrəvan şəhərinin tarixi simasını dəyişdirib "erməni şəhərinə" çevirmək siyasəti yeridən erməni vandallı bu qədim Azərbaycan şəhərinin bütün tarixi abidələrini məhv etdilər.

Bu gün qədim Azərbaycan şəhəri İrəvandan əsər-əlamət qalmamışdır. İrəvan qalası içərisindəki tarixi-memarlıq abidələri ilə birlikdə məhv edilmişdir.

Bu gün İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izləri silinmiş, şəhərin azərbaycanlı etnik kimliyi yox edilmiş, tarixin türk-müsəlman şəhəri monoetnik erməni şəhərinə çevrilmişdir. Lakin tarixin yaddaşını silmək mümkün deyil. Erməni vandallarının dağıdıb məhv etdikləri İrəvan xanlığının paytaxtı olan Azərbaycanın qədim İrəvan şəhəri ilk mənbələrdə, o cümlədən arxiv sənədlərində, tarix kitablarında, salnamələrdə, rəsm əsərlərin- də, qravürlərdə, foto-sənədlərdə yaşayır və nəsillərdən-nəsillərə ötürülür.

Oxuculara təqdim olunan **"İrəvan xanlığının paytaxtı – İrəvan şəhəri"** adlanan bu kitabça Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvan xanlığının paytaxtı – İrəvan şəhərinin şanlı tarixinə həsr olunmuşdur.

**Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*





## *İrəvan xanlığının paytaxtı – İrəvan şəhəri*

Bu gün erməni vandalları tərəfindən Azərbaycan xalqına məxsus tarixi abidələri tamamilə dağıdılıb məhv edilmiş **İrəvan şəhəri,** Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri, tariximizin ən şanlı və ən parlaq səhifəsinin simvolu olmuşdur.

Hazırda Ermənistan Respublikasının yerləşdiyi ərazi yaxın keçmişdə – XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının torpaqları idi. Bu torpaqların ən qədim yerli əhalisi – aborigen sahibləri Azərbaycan türkləri idi. Lakin tarixin amansız axarlarında, 1918-ci ildə İrəvan şəhəri ermənilərə güzəşt edildi. Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq erməni dövləti yaradıldı.

## *İrəvan toponimi haqqında*

Qədim Urartu tarixinə şərik çıxmağa çalışan erməni tarixçiləri əsassız olaraq İrəvan şəhərinin adının e.ə.VIII yüzillikdə Urartu çarı I Argiştinin (e.ə.786-764) dövründə salınmış Erebuni və yaxud İrpuni qalasının adı ilə bağlamağa çalışırlar. Erməni tarixçisi Yervand Şahəziz 1931-ci ildə İrəvanda çap etdirdiyi *"Qədim İrəvan"* kitabında İrəvan toponimi ilə bağlı yazır: *"İrəvan adının ermənicə "yereval" (görünmək- red.) və ya "yerevan qall"* (aşkar olmaq, irəli gəlmək-red.) *sözləri ilə heç bir əlaqəsi... yoxdur. ..Şəhərin adı ilə bağlı elmi baxımdan qəbul ediləcək, həqiqətə uyğun yeganə şərh Moskva Ar-*



*xeoloji Cəmiyyətinin üzvü M.Nikolskinin verdiyi şərhdir. Belə ki, 1893-cü ildə o, cəmiyyətin tapşırığı ilə burada səyahətdə olmuş, o vaxta qədər tapılmış mixi xətli yazıları tədqiq etmişdir. M.Nikolskinin izahına görə İrəvan adı Yeriaini (Eriaini) ölkəsinin adından irəli gəlir. Onun da mərkəzi və ya baş şəhəri İrəvan olmuşdur. Bu* ***Yeriaini ölkəsinin*** *adı isə Urartu çarı I Rusa tərəfindən Göyçə (Sevan) gölü ətrafında zəbt etdiyi 23 ölkələr sırasında olan, gölün sahilində yerləşən "Kolan-qıran" (Otsaberd) adlanan kəndin yanında tapılmış yazıda həkk olunmuşdur".*[1]

Erməni tarixçilərinin əksəriyyətinin öz əsərlərində uydurduqları "qədim erməni tarixi"nin Urartu dövləti ilə əlaqələndirilməsi səciyyəvi hal almışdır. Halbuki bu ərazilərdə yaşamadıqları üçün, ermənilərin bu dövlətlə də heç bir əlaqələri ola bilməzdi. Digər erməni müəllifləri kimi, Y.Şahəzizin də İrəvan toponimi ilə bağlı fikirləri heç biri elmi əsasa söykənməyir. Ən əsası isə, M.Nikolskinin gəldiyi nəticələrin nəşr olunduğu mənbə haqqında Y.Şahəziz heç bir məlumat vermir.[2]

***İrəvan*** toponiminin mənşəyinə gəlincə, "**İr (Yer)**" toponiminin erməni dilində heç bir izahı yoxdur. "**İr (Yer)**"qədim türk sözü olub ***"yerin günəşə baxan üzü"***nə deyilirdi.[3]

---

[1] Երվանդ Շահազիզ: Հին Երեվանը: Երեվան,1931:էջ: 7-8 (Yervand Şahəziz. Qədim İrəvan. İrəvan, 1931, s.7-8).

[2] Nəcəfli G. Azərbaycanın İrəvan şəhəri XVIII əsrdə. // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları (27-28 oktyabr, 2010. Azərbaycan, Şəmkir, Gədəbəy).Bakı, 2012, s.485.

[3] Mahmud Kaşğari. Divanü lüğat-it-türk (Tərcümə edən və nəşrə hazırlayan R.Əskər), c. IV. Bakı, 2006, s.218.





Bəzi tədqiqatçıların fikrincə ***İrəvan*** toponimi türk dillərindəki "ir" –"dağın gündüşən tərəfi" və farsca "van" – "yer" sözlərindən ibarətdir. ***İrəvan*** toponiminin qədim türk teonimlərindən (ilahi adlar) törənən etnik adlar sırasına daxil edilməsi və onun qədim türklərin "ir" ("yer") Tanrısı ilə eyniləşdirilməsi fikri daha düzgündür.[1]

## *İrəvan şəhərinin tarixi haqqında*

İrəvan şəhərinin yerləşdiyi ərazi qədim dövrdə və erkən orta əsrlərdə Urartu, Əhəməni, Sasani, Ərəb Xilafəti, orta əsrlərdə Sacilər, Salarilər, Şəddadilər, Səlcuqlar, Atabəylər, Hülakülər, Cəlairilər və hətta Teymur dönəmində də Azərbaycanın sərhədləri daxilində olmuşdur. Azərbaycan Qaraqoyunlu dövlətinin (1410-1468) yarandığı zamanından başlayaraq Çuxursəd adlanan bu bölgə daha da sürətlə inkişaf etmişdir.

Erməni yazıçısı Xaçatur Abovyan "İrəvan şəhərinin qısa tarixi" məqaləsində yazır ki, erməni yazarları eramızın XIII əsrin əvvəllərinədək İrəvan şəhərinin adını heç yerdə çəkmirlər. ..Xaçatur Abovyan İrəvanın adının erməni çarı Yervandın adından götürülməsini və yaxud Nuh peyğəmbərin adı ilə bağlanmasını da cəfəngiyat hesab edərək bu şəhərin 1441-ci ildən, yəni Qaraqoyunlu hökmdarı Cahan şah döv-

---

[1] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s.37.



ründən sonra məşhurlaşdığını yazır. Xaçatur Abovyan sonuncu İrəvan sərdarı da daxil olmaqla, İrəvan şəhərini və onun ətrafındakı torpaqların müxtəlif zamanlarda türklər tərəfindən 10 paşanın və 33 nəfər yerli xanlar tərəfindən idarə etdiyini qeyd edir.[1]

Erməni tarixçisi Aram Ter-Qevondyanın ərəb qaynaqları əsasında hazırladığı "Ermənistan və ərəb xilafəti" (rus dilində) əsərində Şərqlə Qərbi birləşdirən karvan yolları üzərində yerləşən müxtəlif şəhərlərin -Ərdəbil, Təbriz, Barzaa (yəni Bərdə), Tiflis, Naşava (yəni Naxçıvan), Dəbil (yəni Dvin) və s. şəhərlərin adını çəksə də[2] **İrəvan şəhərinin adı qeyd olunmur. Çünki, ərəb Xilafəti zamanında İrəvan şəhər kimi mövcud olmamışdır.**

Osmanlı səyyahı Evliya Çələbi "..hicri 810-cu (miladi 1407/1408) ildə Teymuri-binur xanın sövdəgərlərindən Xoca Cani-Lahicani adlı bir ənqa bəzirgan bu Rəvan torpağına qədəm basıb, pak ənbər qoxulu bir məhsuldar torpaqda bütün heyəti ilə qərar verib növbənöv çəltik əkib mal topladıqca nəhayətdə bir böyük qəsəbə olduğunu yazırdı.[3] İrəvan şəhərinin əlverişli coğrafi mövqeyini nəzərə alan böyük Azərbaycan hökmdarı *"Şah İsmayıl h.915-ci il (m.1509/1510)*

---

[1] Mustafa N. İrevan şehri. Bir türk-islam varlığı nasıl yok edildi. Ankara, 2015, s.18.

[2]Тер-Гевондян А.Н. Армения и арабский Халифат. Ереван, 1977, с.62-63, 202-205.

[3] Evliya Çələbi "Səyahətnaməsi"ndə Azərbaycan. (Nəşrə hazırlayan Mehmet Rıhtım). Bakı, 2012, s.86.







*Miniatür. İrəvan qalası.*

*tarixində Zəngi çayının şərq sahilində qala salınması üçün Rəvanqulu xanın adına fərman göndərmişdir. 7 il müddətinə salınmış bu qala Rəvanqulu xanın şərəfinə **İrəvan qalası** adlandı".*[1]

Sonrakı dövrlərdə İrəvan qalası Azərbaycan xalqının qəhrəmanlıq mübarizəsi tarixinin ən şanlı və ən parlaq simvoluna çevrildi.

İrəvan şəhəri Osmanlı sərhədlərinə yaxın olduğu üçün Şah İsmayıl onun möhkəmləndirilməsinə xüsusi diqqət yetirmiş və bu şəhərdə daha bir qala – **Qaranquş qalasını** tikdirmişdi.[2]

XVI əsrdə Osmanlı yürüşləri zamanı sultanın kati-

[1] Bax: Evliya Çələbi "Səyahətnaməsi"ndə.., s.86-87.

[2] Ernst Honigmann. Bizans devletinin doğu sınırı. (Tercüme eden Fikret İşıltan). İstanbul, 1970, s.175; Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı müharibələri dövründə (XVI-XVII əsrin I yarısı). // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları (27-28 oktyabr, 2010. Azərbaycan, Şəmkir, Gədəbəy). Bakı, 2012, s.459.



bi olmuş İbrahim Rəhimizadə **İrəvan şəhərini** ***"Azərbaycan mülkünün gözü"*** adlandırmışdı.[1]



***Miniatür. Fərhad paşa İrəvanda.***

[1] İbrahim Rəhimizadə Hərəmi. Osmanlı ordusunun Azərbaycana yürüşləri (XVI əsrin sonu). (Nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). Bakı: "Nurlan", 2007, s.169.



*Miniatür. Cığalazadə Sinan paşa İrəvanda.*

Sultan Süleymanın 1554-cü ildə Azərbaycana IV yürüşü zamanı İrəvan şəhəri Osmanlı ordusunun növbəti hücumuna məruz qaldı. Osmanlı ordusu iyulun 10-da Şörəyel və Şərabxana bölgəsini talan edərək İrəvana yaxınlaşdı. Şah Təhmasibin "viran edilmiş ərazi" taktikası Osmanlı ordusuna İrəvanı ələ keçirməsinə şərait yaratdı. İyulun



18-də İrəvan şəhəri Osmanlı ordusu tərəfindən ələ keçirildi. Osmanlılar tərəfindən şəhər tamamilə qarət edildi, Şah Təhmasibə, oğluna və əmirlərə məxsus saraylar dağıdıldı, bağ və bağçalar yerlə-yeksan olundu. Şəhərdə şaha məxsus olan "Sultaniyə bağçası" da tamamilə dağıdıldı.[1]

## İrəvan şəhəri səyyahların təsvirində

İrəvan şəhəri Azərbaycan Səfəvi dövlətinin inzibati vahidlərindən biri, Çuxursəd bəylərbəyiliyinin mərkəzi idi. Çuxursəd bəylərbəyiliyi uzun müddət Rumlu, Ustaclı və Qacar tayfa əmirləri tərəfindən idarə edilmişdir.

İrəvan şəhəri haqqında müxtəlif dövrlərdə burada olmuş səyyahlar maraqlı məlumatlar vermişlər. Bu məlumatlar əsasən şəhərin coğrafi mövqeyi, möhtəşəm tikililəri, yaşayış və ictimai binaları, əhalinin məşğuliyyəti və s. əhatə edirdi.

XVII əsrin 50-ci illərin ortalarında İrəvanda olmuş fransız səyyahı Jean-Bartiste Tavarnier İrəvan şəhərini təsvir edərkən onun iki hissədən – *içəri şəhər* və *bayır şəhərdən* ibarət olduğunu qeyd edərək yazırdı: "*İçəri şəhərdə* yalnız xan özü, ordu başçıları və hərbiçilər yaşayırlar. Xanın imarəti çaya baxır. Xan çox güclüdür və onun hər zaman sərhədi

---

[1] Kılıç R. Kanuni devri Osmanlı – İran münasebetleri (1520-1566). IQ Kültür Sanat Yayıncılık,İstanbul, 2006, s.232-233; Nəcəfli T. İrəvan şəhəri Səfəvi..., s.460.

qorumağa qadir ordusu vardır. ....şimal-qərb hissədə yerləşən *bayır şəhərdə* yaşayış içəri şəhərdən 20 dəfə çoxdur.[1]



***Fransız səyyahı Tavernyeyə görə İrəvan şəhərinin görünüşü. 1655-ci il***
*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.62*

XVII əsrin 70-ci illərinin əvvəllərində İrəvanda olmuş fransız səyyahı J.Şarden şəhərin ümumi təsvirini verərək yazırdı: "İrəvan böyük şəhər olsa da, gözəl deyil və çirkli şəhərdir. Şəhərdəki binalar gözəl deyil. Onun böyük hissəsi

[1] Tavarnier Seyahatnamesi Stefanos Yerasimosun Anısına (Çeviren Teoman Tunçdoğan). İstanbul, 2006, s.75.



bağlardan və üzümlüklərdən ibarətdir. ...O, hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşir. Şimal-qərb tərəfdən Zəngi, cənub-qərb tərəfdən isə Qırxbulaq çayları axır.[1]

J.Şarden daha sonra içəri şəhərin, yəni qalanın təsvirini vermişdir: "Qala kiçik bir şəhərdən böyükdür. O, oval formadadır, dairəsi dörd min addım olub, təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar. ..Qalanın müdafiəsi üçün iki min əsgər ayrılmışdır. Hakimin sarayı qalanın içərisindədir. ...Şəhərdə və qalada çoxlu hamam və karvansaray vardır".[2]



***Fransız səyyahı Şardenə görə İrəvan şəhərinin görünüşü. 1672-ci il***
*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.62.*

---

[1] Şarden İ. Səyahətnamə (fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, 1994, s.21.

[2] Şarden İ. Səyahətnamə..., s.21-22.





XX əsrin əvvəllərində Fransanın Belçikada (Brüssel) səfiri olmuş, fransız tədqiqatçı Herbet Moris (1871-1929) İrəvanlı Məhəmməd Rza bəyə həsr etdiyi tədqiqat əsərində *("İran səfiri XIV Lüdoviqin qəbulunda", Paris, 1907*) fransız səyyahı J.Şardenin İrəvan şəhəri ilə bağlı yazdıqlarını öz əsərində bir daha təqdim etmişdir. Müəllif əlavə olaraq qeyd edir ki, İrəvan (içəri şəhər – *red*.) oval formalı, dördbucaqlı qala idi. Torpaq və gildən tikilmiş qala üç divardan ibarət idi, qalanın ətrafı bürclərlə (qüllə) qorunan və dar torpaq zolağı olan xəndəklə əhatələnmişdir. Qala şimal-qərbdə dibindən Zəngi çayının axdığı 300 futdan (təqribən 91 metr - *red.*) çox dərinliyi olan yarğana qədər uzanırdı.Qalanın dəmir qapıları darvazalarla təchiz olunmuşdur, keşikçi məntəqəsi də burada yerləşirdi. Qalada xanın sarayı yarğanın kənarında yerləşirdi. Şardenin dediyinə görə, İrəvanda nəfəs aldığımız hava təmiz və yaxşı idi, lakin çox soyuq idi. Qış burada çox şərt və uzun idi.[1]

XVII əsrdə İrəvanda olmuş Osmanlı səyyahı Övliya Çələbi İrəvan qala-şəhəri ilə bağlı maraqlı məlumatlar vermişdir: "Möhkəm dəmirdən hazırlanmış üç darvazası vardır. *Təbriz qapısı* cənub tərəfə, *Meydan qapısı* və ya *Yayla qapısı* şimal tərəfə açılır. *Çövkən meydanı* burada yerləşir. Qərb tərəfə açılan *Körpü qapısına* Əcəm dilində *Darvazeyi-Pul* deyərlər. Osmanlıdan qalmış 700 ədəd böyük və kiçik topları var. Digər sursat və cəbbəxanalarının da sayı-hesabı yoxdur". ...Burada 3 min qala gözətçisi, 3 min xan ordusu və 7 min əyalət əsgəri vardır. Bura bir neçə dəfə xanlar xanlığı olmuş-

[1] Maurice Herbette. Ambassade Persane Sous Louis XIV. Paris, 1907, 13.

du. Burada qazi, molla, şeyxül-şərif, kələntər, darğa, münşi, yasavul ağası, qoruqçubaşı, eşik ağası, dizçökən ağa, 7 nəfər mehmandar və şexbəndər vardır. Bütün İran torpağının sərhədlərinin güzidəsidir. Şəhərin içərisində üstü (damı – *red*.) torpaqla örtülmüş 2060 yaraşıqlı ev vardı. O cümlədən, Əmirgünə xanın ziyadəsilə təmir edilmiş **Xan Sarayı** ən abad və yaraşıqlı binadır. Sarayın yaxınlığında, sol tərəfində *Şah zərbxanası* yerləşir. Burada *abbasi* və *bisti* kəsilir. *Yayla qapısından* bayırda yerləşən böyük hissəyə *Əski şəhər* deyirlər".[1]

"Burada cümə məscidi, karvansaray, üstüörtülü və üstüaçıq bazar vardır. Körpü başında *Xan bağı* yerləşir. Burada



***İrəvan qalasının Zəngi çayından görünüşü***
*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.66.*

[1] Evliya Çələbi "Səyahətnaməsi"ndə Azərbaycan.., s.91.





da cümə məscidi, karvansaray, hamam, üstüörtülü bazar çoxdur, bir növ şəhərdir".[1]

XVI əsrdə baş vermiş Səfəvi-Osmanlı müharibələri zamanı İrəvan şəhərinin dəfələrlə osmanlı ordusunun hücumlarına məruz qalmasına baxmayaraq, şəhərdə həyat davam etmişdi. 1590-cı ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş *"İrəvan əyalətinin müfəssəl dəftəri"*nə görə, qeyd edilən dövrdə İrəvan şəhəri 6 məhəllədən – *Dərəköy, Mardiros,* Məzərə (Mirzə - red.), Kiçik Qayıq, Əyali, Börkçü Ohan* məhəllələrindən ibarət olmuşdu.[2]

"Müfəssəl dəftər"də İrəvan şəhərindəki *Dəyirmantəpə küçəsində* yerləşən ticarət obyektlərindən və İrəvan şəhərində yerləşən boyaxana, **bozaxana, şamxana**, bazar bacı, qara tamğa və at bazarından alinan illik gəlirlər qeyd edilmişdir.[3]

1728-ci ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş *"İrəvan əyalətinin müfəssəl dəftəri"*nə görə bu dövr-

---

[1] Evliya Çələbi "Səyahətnaməsi"ndə Azərbaycan.., s.91; Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). (Türk dilindən işləyəni və şərhlərin müəllifi t.e.d., prof. S.Onullahi). Bakı, 1997, s.54-55.

* Mardiros məhəlləsinin adının erməni dilində olmasının mühüm səbəbi vardır. İrəvan şəhərinin osmanlı qoşunu tərəfindən ələ keçirilməsi nəticəsində Azərbaycan türkləri şəhəri kütləvi şəkildə tərk etmiş və onların yerinə erməni əhalisi yerləşdirilmişdir. Bax: Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1576-1590). c.İ. İstanbul, 1992.

[2] İrəvan əyalətinin icmal dəftəri. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd. Z.Bünyadov, t.e.n.H.Məmmədov (Qaramanlı). Bakı, 1996, s.19.

[3] BOA, Tapu Tahrir Defteri, N:681, s.4-5.



də İrəvan şəhəri 4 məhəllədən – *Köhnəşəhər, Dəmirbulaq, Dərəkənd* və *Təpəbaşı* məhəllələrindən ibarət olmuşdu.[1]



***İrəvan şəhərinin Dərəkənd məhəlləsinin ümumi görünüşü***
*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.75.*

## İrəvan şəhəri – İrəvan xanlığının paytaxtı

XVIII əsrin II yarısında keçmiş Çuxursəd bəylərbəyiliyinin ərazisində yaranmış Azərbaycan dövlətlərindən biri-

[1] İrəvan əyalətinin icmal.., s.19-20.





nin – İrəvan xanlığının paytaxtı **İrəvan şəhəri** idi. Müstəqil xanlığın mərkəzi olduqdan sonra İrəvan şəhəri daha da inkişaf etmiş böyük ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi. ...**İrəvan şəhəri** şimaldan Qırxbulaq, qərbdən və cənubdan Zəngibasar mahalları ilə, şərqdən isə onu Qərbibasar (Körpübasar) mahalından ayıran Oxçuberd dağının daşlı pillələri ilə həmsərhəd idi. İrəvan şəhəri onu əhatə edən bağlarla birgə geniş ərazini əhatə edirdi. Onun sahəsi 28 verstə bərabər idi.[1]



***İrəvan şəhərinin planı.*** *СМОМПК, вып. 1, Тифлис, 1881.*

[1] Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852, с.463-464.



Müstəqil inzibati mərkəz olan **İrəvan şəhəri** iki hissəyə – ***içəri şəhər (qala)*** və ***bayır şəhər*** hissəsinə bölünmüşdü. (xəritə, Irv.qalası, s.12-13)

***İçəri şəhər*** əsasən qala-şəhərdən ibarət idi. ***İrəvan qalası*** Zəngi çayının sol sahilində yerləşirdi. Qala üç tərəfdən dərin xəndəklə, digər tərəfdən isə Zəngi çayının sol sahilində sıldırımda tikilmiş iki hündür divarla əhatə olunmuşdu. Qalanın iki qapısı vardı: şimalda məşhur ***Şirvan qapısı***, cənubda isə ***Təbriz qapısı***. Mühasirə zamanı sudan istifadə etmək üçün qaladan Zəngi çayına çıxış da var idi.[1]



***İrəvan qalasının maketi. İrəvan tarix muzeyi. İrəvan.***

[1] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗ) (Составил Лекгобытов).ч. IV. СПб., 1836, с.290; Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica, Costa Mesa, California and New York, 1992, p.41.

1813-cü ildə burada olan Qaspar Druvil yazırdı: *"İrəvan qalası iki divarla əhatə olunub, şəhərdən yarım top atəşi məsafəsində yerləşir. Qala uzun müddət Türkiyə və İran arasında mübahisəyə səbəb olmuş, nəhayətdə İranın (Səfəvilərin – red.) hakimiyyəti altında qalmışdı. Qalanı xan idarə edir. Xan qalanın içərisində üç nizami tabor, qalanı qoruyan 60 top və süvari artilleriya bölüyünün yarısını saxlayır"*.[1]



***İrəvan şəhərinin planı. 1837-ci il***
*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.76*

[1] Друвиль Г. Путешествие в Персию в 1812 и 1815 годах ч.II. (Географическое описание). Москва.1826, с.8.



*Bayır şəhər* əsasən üç böyük məhəllədən ibarət idi. Həmin məhəllələr bunlar idi:

***Əski şəhər (Şəhri) məhəlləsi*** – şəhərin şimal-şərq hissəsini əhatə edərək Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasına kimi uzanırdı. Şəhərin mərkəzi bazarı və bütün meydanları, bir çox karvansaraları bu hissədə yerləşirdi.[1]

***Təpə başı məhəlləsi*** – Zəngi çayı ilə Əski şəhər məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi. Bu məhəllə şəhərin qərb hissəsini əhatə edirdi. Təpəbaşı məhəlləsini Şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur *Xanbağı* da burada yerləşirdi.[2]

***Dəmirbulaq məhəlləsi***– Əski şəhər məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi. *Cəfər bəy məscidi* və *hamamı*, həmçinin *Həsənəli hamamı* və *Susuz karvansarası* burada yerləşirdi.[3]

Şopenin verdiyi bu məlumatları erməni tarixçiləri təsdiq etməklə yanaşı həm də bu məhəllələrin sakinlərinin Azərbaycan türkləri olduğunu etiraf edirlər.[4]

---

[1] Шопен И.И. Исторический памятник.., с.464.

[2] Шопен И.И. Исторический памятник..., с.464.

[3] Шопен И.И. Исторический памятник..., с.464.

[4]Գրիգորյան Վ.Ռ. Երևանի խանությունը 18-րդ դարի վերջում, Երևան, 1958: էջ: 40 [Qriqoryan V.R. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780- 1800), İrəvan, 1958, s.40]; Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Californiaand New York, 1992, p.47.



***Xəritə 1. İrəvan xanlığının sxem-xəritəsi***
***Mənbə:*** *Григорян З.Т. Присоединение Восточной Армении к России в начале XIX в. Москва, 1959, с.143.*

XVI əsrdə Osmanlı ordusunun yürüşləri zamanı sultanın katibi olmuş İbrahim Rəhimizadə İrəvan şəhərini "*Azərbaycan mülkünün gözü*" adlandırmışdı.[1]

XIX əsrin I qərinəsində Rusiya tərəfindən işğal olunmasına baxmayaraq, sonrakı dövrlərdə də *İrəvan şəhəri* öz

[1] İbrahim Rəhimizadə Hərəmi. Osmanlı ordusunun Azərbaycana yürüşləri (XVI əsrin sonu). (Nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). Bakı, 2007, s.169.



gözəlliyini və Azərbaycan türklərinə məxsusluğunu saxlayırdı. B.Jelixovskaya bu haqda yazır: *"İrəvan görünüşünə görə bütünlüklə tatar (Azərbaycan – red.) şəhəridir, uzaqdan çox gözəldir. Şəhərin yerləşdiyi düzənlik nəhəng gül səbətinə bənzəyir. Ağ evlər, qüllələr, qalanın xarabalıqları, rəngbərəng kaşılarla üzlənmiş məscid və təmtəraqlı minarələr: bunların hamısı bağların içərisində itir, piramidaşəkilli sərvlərin xiyabanı ilə çəpərlənir, hər şey üzüm tənəkləri, sarmaşıq xalçaları ilə əhatə olunmuş, hamısı qızılgül və nar kolları ilə bəzədilmişdi. Zəngi çayı yüksək dağdan şəlalə kimi düzənliyə tökülür və qayalarda dərin yataq açaraq şəhərə doğru yönəlir və hər cür yaşıllığın keçilməz cəngəlliyində itir"*.[1]

XIX əsrin birinci rübündə ***İrəvan qalasının içərisində* Xan sarayı** (Sərdar sarayı), hərbçilərin evləri, dükanlar və iki məscid vardı. Qalanın içərisinə 2 yerdən – Zəngi çayından və cənub-şərq tərəfdə olan Qırxbulaqdan yeraltı yolla su çəkilmişdi. Rusiya işğalına qədər İrəvan qalasında **800** ev vardı. 1836-cı ildə Leqkobıtov tərəfindən tərtib olunmuş mənbənin məlumatına görə ***İrəvan qalasının ətrafında – bayır şəhərdə*** isə **1736** ev, **5** meydan, **8** məscid, **5** kilsə, **6** karvansara, **1670** dükan, **9** ictimai hamam, **1470** üzüm və meyvə bağı, **40** dəyirman, **6** ding vardı.[2]

---

[1] Желиховская В. Кавказ и Закавказье (с рисунками и картою Кавказа). Москва, 1913, s.40-42.

*Bu kilsələr İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğalından sonra tikilmişdi. Bax: Шопен И.И. Исторический памятник.., с.686.

[2] ОРВЗ, ч.IV., с.290-291.



***Azərbaycan türklərinə məxsus Əfşar karvansarası. İrəvan şəhəri.***

*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.70.*



***İrəvan şəhərində Azərbaycan türklərinə məxsus hamam. Giriş portalı.***

*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с.71*



İ.Şopenin qeydə aldığı 1736 evdən 792-i *Əski şəhər (Şəhri)*, 622-i *Təpəbaşı*, 322-i isə *Dəmirbulaq* məhəlləsində yerləşirdi.[1]



***Köhnə İrəvan bazarı. 1905-ci ilə aid foto***
***Mənbə:*** *Luigi Villari. Fire and Sword in the Caucasus. London, 1906, p.220.*

İrəvan şəhəri tez-tez xarici hücumlara məruz qaldığından onun küçə və evləri müdafiəyə uyğun şəkildə tikilmiş-

---

[1] Шопен И.И. Исторический памятник..., с.468.





dir. Şəhərdə küçələr dar və əyri, evlər isə zahiri görünüşcə yaxşı təsir bağışlamayan formada idi. İ.Şopenin təsvirinə görə İrəvan şəhərində küçələr dar və əyri idi. Küçələr çiy kərpicdən, çay daşından və bəzən də palçıqdan hazırlanmış iki cərgəli divarlarla əhatə olunmuşdu. Bu divarlar hərdən kip örtülmüş həyət qapıları ilə kəsilirdi. Baş küçənin ortasından çay axırdı, bu çayın suyu köndələn çəkilmiş kəmərlərlə bağlara paylanırdı.[1]

Daha sonra İ.Şopen yazırdı ki, şəhərdəki evlər zahiri görünüşünə görə yaxşı təsir bağışlamırdı. Lakin daxildən daha səliqəli və zəngin idi. Hər bir evin ətrafında bağ, evlərin arasında isə təmiz daşdan döşənmiş, qədim tut və yaxud qoz ağacları ilə kölgələnən səliqəli həyət vardı. Həyətin ortasında isə fəvvarəli olan daş hovuz yerləşirdi. Evlər elə tikilirdi ki, bayırdan nəzərə çarpmasın. Evlərin otaqları adətən tamamilə bayır divarı əhatə edən iri pəncərələrlə işıqlandırılırdı. Pəncərələr aşağı-yuxarı örtülüb bağlanırdı. Bu şüşə pəncərələr gözəl və müxtəlif naxışlı cürbəcür rənglərdən ibarət idi.[2]

İmkanlı və nüfuzlu şəxslərin evləri daha geniş və səliqəli idi. Bu evlərin divarları ağ suvaqla hamar şəkildə suvanmış və süni yapma naxışlarla bəzədilmişdi. İ.Şopen bu bəzəkləri Avropanın mərkəzi saraylarının bəzəklərindən daha yaxşı hesab edirdi.[3]

---

[1] Шопен И.И. Исторический памятник..., с.466.
[2] Шопен И.И. Исторический памятник..., с.466-467.
[3] Шопен И.И. Исторический памятник..., с.467.





**Əli xanın evi. İrəvan şəhəri**

*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с. 74*



**Pənah xanın evi. İrəvan şəhəri**

*Mənbə: Арутюнян В., Асратян М., Меликян А. Ереван. М., 1968, с. 89*



***Göy məscidin minarəsi. İrəvan şəhəri.***
*Mənbə: Lynch H.F.B., Armenia, Travels and Studies, vol. 2, 1901, p. 213*





***Göy məscid.***
*(Bax: August von Haxthausen. Transcaucasia: Sketches of the Nations and Races Between the Black Sea and the Caspian. London, 1854, p. 268).*



***İrəvan qalasındakı Sərdar (Abbas Mirzə) məscidi.***
*Rəssam Dübua de Monpere. 1843.*









***Göy məscid.***
***Rəssam Dübua de Monpere,***
***qravüraçı Nikole Erkül.***

***İrəvanda məqbərə.***

*Rəssam Vanderburx. Qravüraçı*
*Devilliers. 1838.*



İstər Osmanlı, istərsə də Rusiya qaynaqlarında İrəvan şəhərinin zəngin şəhər olduğu qeyd olunur. Şəhərdə yerləşən ictimai tikililərin sayını göstərən cədvəlləri təqdim edirik:

***Cədvəl 1.***

*Rusiya işğalından sonra İrəvan şəhərində qeydə alınmış meydanların adları*

| № | meydanın adı | əlavə məlumatlar |
|---|---|---|
| 1 | Xan bağı meydanı | |
| 2 | Fəhlə bazar meydanı | Bura əsasən iş axtarmağa gələn qara fəhlələr toplaşırdı. |
| 3 | Zal xan meydanı | Meydanın ətrafında bir neçə dükan və iri çinar ağacları vardı. |
| 4 | Bazar meydanı | Bazarla İrəvan qalası arasında yerləşirdi. Bu meydana əsasən kənd əhalisi satmaq üçün ərzaq və digər məmulatlar gətirirdi. |
| 5 | Hüseynəli xan meydanı | Hüseynəli xan məscidinin qarşısında yerləşdiyi üçün belə adlanır. Dairəvi şəkilli bu meydanın ətrafında dükanlar yerləşirdi. |
| 6 | Tağ meydanı | İçəri şəhərdə yerləşirdi. |
| 7 | Çörəkçi meydanı | İçəri şəhərdə yerləşirdi. |
| 8 | Çölməkçi meydanı | İçəri şəhərdə yerləşirdi. |
| 9 | Ticarətçi meydanı | İçəri şəhərdə yerləşirdi. |
| | Qeyd: | İrəvan şəhərindəki meydanlar əsasən əhalinin söhbət etmək üçün cəmləşdiyi yer olduğundan onlardan ticarət məqsədilə istifadə olunurdu. |

***Mənbələr:***

1. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852, с.877-878.
2. СМОМПК, вып.I, Тифлис, 1881.
3. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York, 1992, p.207.





*Cədvəl 2.*

Rusiya işğalından sonra İrəvan şəhərində qeydə alınmış dükanlar

| № | dükanların yerləşdiyi ərazi | dükanların sayı |
|---|---|---|
| 1 | Karvansaraların ətrafında | 252 |
| 2 | Bazarların yanında və ya ayrı-ayrı cərgələrdə | 543 |
| 3 | İrəvan qalasında | 32 |
| 4 | Təpəbaşı məhəlləsində | 4 |
| 5 | Şəhər məhəlləsi və məscidin ətrafında | 18 |
| 6 | Dəmirbulaq məhəlləsində | 2 |
| | Cəmi | 851 |

***Mənbələr:***

1.ОРВЗ ч.IV. СПб., 1836, с.290-291.
2. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, с.469, 881.
3. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York, 1992, p.204.



*Cədvəl 3.*

Rusiya işğalından sonra İrəvan şəhərində qeydə alınmış karvansaralar*

| № | karvansaranın adı | əlavə məlumatlar |
|---|---|---|
| 1 | Gürcü karvansarası | Əsasən Rusiyadan və Gürcüstandan gətirilən mallar üçün anbar rolunu oynayırdı və 78 dükanı var idi, bunlardan 24-ü şəxsi dükan idi. |
| 2 | Culfa karvansarası | Əsasən İrandan gətirilən mallar üçün anbar rolunu oynayırdı və 38 dükanı var idi. |
| 3 | Zöhrab xan karvansarası | 38 dükanı var idi. |
| 4 | Tahir karvansarası | 74 dükanı var idi. |
| 5 | Sulu karvansarası | 74 dükanı var idi. |
| 6 | Susuz karvansarası | İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yerləşir, hamamı yoxdur və 74 dükanı var idi. |
| 7 | Hacı Əli karvansarası | 40 dükanı var idi. |
| | Qeyd: | İrəvan şəhərindəki karavansaralar əsasən bazar və meydanlarda yerləşirdi. |

***Mənbələr:***

1. ОРВЗ ч.IV. СПб., 1836, с.290-291.
2. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, с.468-469, 878-880.
3. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York, 1992, p.207.

---

* J.Bornoutyanın əsərində İrəvan şəhərindən başqa xanlığın digər ərazilərində yerləşən karvansaralar haqqında da məlumat vardır:

— Talın mahalındakı karvansara Gümrü və Sərdarabada gedən yolun üzərində yerləşir;

— Dərəçiçək mahalındakı karvansaralardan üçü Tiflis — İrəvan, Səlim adlı digər karvansara isə Dərəçiçək-Göyçə yolu üzərində yerləşir;

— Göyçə mahalındakı karvansaralardan biri Gil kəndinin yaxınlığında, digəri isə Qarahisar yolunun şimalında yerləşir.





XIX əsrin əvvəllərində Cənubi Qafqazın tarixində qanlı faciələr dövrü başlandı. Regionu ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarına qarşı müharibələrə başladı. Çox çəkmədən Cənubi Qafqaz Rusiya imperiyasının Qacarlar İranı və Osmanlı dövlətinə qarşı apardığı qanlı müharibələr meydanına çevrildi.

İrəvan xanlığı işğal olunduqdan sonra İran və Osmanlı imperiyaları ərazilərindən köçürülüb gətirilən ermənilər xüsusi göstərişlə İrəvan şəhəri və onun mahallarında yerləşdirildi. Bundan sonra ermənilər tərəfindən *İrəvan şəhərində azərbaycanlılara məxsus bütün maddi-mədəniyyət izlərinin silinməsi; şəhərin azərbaycanlı etnik kimliyinin yox edilməsi; türk-müsəlman şəhərinin monoetnik erməni şəhərinə çevrilmə* siyasəti – vandalizm aktı həyata keçirilməyə başlanıldı. Bu siyasətin nəticəsində bu gün İrəvan şəhərində azərbaycanlılara məxsus bir dənə də olsun maddi-mədəniyyət nümunəsi qalmamışdır.

İrəvan şəhərində 1828-ci ildən başlayaraq ermənilər tərəfindən azərbaycanlıların maddi-mədəniyyət izlərinin silinməsi üçün dəfələrlə vandalizm aktı həyata keçirilsə də tarixin yaddaşını silmək mümkün deyil. Mənbələrdən götürülmüş qiymətli faktlar mühüm bir tarixi gerçəkliyi sübut edir: **İrəvan şəhəri bütünlüklə Azərbaycan xalqına məxsusdur!**

İrəvan XANLIĞI

# İrəvan xanlığının paytaxtı

# İRƏVAN ŞƏHƏRİ

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət
Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İrəvan xanlığının
tarixinə dair 4 adda broşürün nəşr olunması" layihəsi
çərçivəsində Azərbaycan Tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

**Azərbaycan Tarixçiləri İctimai Birliyi**
AZ1065, Bakı., B.Bağırova küç., 7, m.29.
E-mail: mxanbabayeva@mail.ru. Mob. (055) 353-02-33
Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutunun mətbəəsində çap edilmişdir.
Bakı şəh., H.Cavid pros., 125.